**Aygün Abdulova**
UNEC



# ÖZBƏKİSTAN İQTİSADİYYATI: DAVAMLI İNKİŞAFA DOĞRU

**Özbəkistan Respublikası öz tarixi inkişafında mühüm mərhələni yaşayır. 2017-ci ildən başlayaraq müstəqillik dövründə ilk dəfə olaraq xarici siyasət prioritetləri dəqiq müəyyən edilmiş, praqmatizmə və milli maraqlarından ən çevik istifadəyə əsaslanan mahiyyətcə yeni xarici iqtisadi əlaqələr qurulmağa başlanılmışdır. Bu gün Özbəkistan regionun açıq iqtisadiyyatlı aparıcı dövlətlərindən birinə çevrilərək möhtəşəm sosial-iqtisadi islahatlar həyata keçirir. Özbəkistanın yeni iqtisadi siyasəti dünya və regional güclər, maliyyə mərkəzləri, ölkələrin inteqrasiya birlikləri və təbii ki, qonşu Mərkəzi Asiya dövlətləri və Rusiya Federasiyası ilə tam hüquqlu əməkdaşlığın genişləndirilməsinə yönəldilmişdir.**

*Özbəkistanda dünya iqtisadiyyatına daha çox inteqrasiya etməklə və beynəlxalq əmək bölgüsündə iştirak etməklə əhalinin ümumi rifah səviyyəsinin yüksəldilməsi üçün ilkin şərtlər yaranmışdır.*

Özbəkistan dünya iqtisadiyyatına daha çox inteqrasiya etməklə və beynəlxalq əmək bölgüsündə iştirak etməklə əhalinin ümumi rifah səviyyəsinin yüksəldilməsinə çalışır. Ən diqqətəlayiq nailiyyətlər arasında valyuta bazarının liberallaşdırılması, valyuta məzənnələrinin çoxluğunun aradan qaldırılması, qiymətlərin və ticarətin tədricən liberallaşdırılması, malların və xidmətlərin sərbəst hərəkəti, xarici investisiyaların cəlb edilməsi, azad iqtisadi zonaların açıqlanması, Avrasiya İqtisadi İttifaqı ölkələri ilə qarşılıqlı ticarətdə idxal rüsumlarının olmaması, idxal tariflərinin və aksizlərin azaldılması, sosial təhlükəsizlik şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi, Mərkəzi Banka daha çox müstəqillik verilməsi, milli statistikaya çıxışın yaxşılaşdırılması, müəssisələr və fiziki şəxslər üçün vergi dərəcələrinin aşağı salınması kimi yenilikləri göstərə bilərik.

İqtisadi inkişafı əks etdirən göstəricilərə baxsaq, Cədvəl 1-dən görsənir ki, əvvəlki illərə nisbətən vəziyyət yaxşılaşır.

Bu gün Özbəkistan Respublikasının dünyadakı maliyyə-iqtisadi mövqeyi



keçid iqtisadiyyatına malik, sürətlə inkişaf edən ölkənin göstəricilərinə uyğundur və beynəlxalq ictimaiyyətin layiqli qiymətini alır. Ölkə iqtisadiyyatı üçün əsas risklər dünya iqtisadiyyatının təlatümlü olması, dünya bazarlarında rəqabətin artması, texnoloji bazanın geriliyi, xammal yönümlü olması, ixracın şaxələndirilməsinin aşağı olması və kənd təsərrüfatının ölkədəki payının hələ də yüksək olmasıdır. Bundan başqa, siyahıya ÜDM-in strukturu, kölgə iqtisadiyyatı, uzunmüddətli maliyyə resurslarının olmaması və sosial məşğulluq risklərini də aid etmək olar.

Hazırda ölkədə struktur islahatlarının dərinləşdirilməsinə, iqtisadiyyatın əsas sahələrinin müasirləşdirilməsinə, şaxələndirilməsinə və regionların tarazlaşdırılmış sosial-iqtisadi inkişafına yönəlmiş kompleks tədbirlər həyata keçirilir. Ölkədə investisiya mühiti yaxşılaşıb. Bununla bərabər iqtisadiyyatın enerji səmərəliliyinin aşağı səviyyəsi, təbii ehtiyatların səmərəsiz istehlakı, texnologiyaların ləng yenilənməsi, "yaşıl" iqtisadiyyatın inkişafı üçün innovativ həllərin tətbiqində kiçik biznesin zəif iştirakı milli prioritetlərə nail olmağa mane olan faktorlardır.

**CƏDVƏL 1.**
**ÖZBƏKİSTAN RESPUBLİKASININ ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ**

| | **2020** | **2021** | **2022** |
|---|---|---|---|
| **Ümumi daxili məhsul** (milyard manat) | 580203 | 620117 | 888 341 |
| **Real ÜDM artımı** (%) | 1,6 | 4,9 | 5,7 |
| **ÜDM deflyatoru** (%) | 11,9 | 18,6 | 24 |
| **İstehlak qiymətləri indeksi** (əvvəlki ilin dekabrına %-lə) | 11,1 | 11 | 10 |
| **Əsas kapitala qoyulan investisiyaların həcmi** (milyard manat) | 202001 | 225922 | 240000 |
| **– əvvəlki illə müqayisədə real artım** (%) | –8,2 | 1,1 | 4,3 |
| **Mal və xidmətlərin ixracı** (mln. USD) | 15128 | 17469 | 50000 |
| – əvvəlki illə müqayisədə real artım (%) | –13,4 | 3,8 | 4,3 |
| **Mal və xidmətlərin idxalı (mln. USD)** | 21172 | 24280 | 30670 |
| – əvvəlki illə müqayisədə real artım (%) | –12,8 | 4 | 4,3 |
| **Xarici ticarət balansı (mln. USD)** | –6044 | 7811 | 24 491 |

**Mənbə:** *Özbəkistan Prezidenti yanında Statistika Agentliyi - stat.uz*